15. Рамстедт Густав (1957). Введение в алтайское языкознание. Морфология. − М.. − с.66.
16. Seyidəliyev, N. (2006). Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. − Bakı: “Araz”. − 323 s
17. Тенещив, Е.Р (2006). Сравнительно-историческая грамматика тюркских языков. Пратюркский язык-основа. Картина мира пратюркского этноса по данным языка. − М., − с.633.
18. Torebekkyzy, L. (2021). Türk halk kültüründe ve edebiyatinda yedi sayisi // Çeşm-i Cihan: Tarih Kültür ve Sanat Araştırmaları Dergisi E-Dergisi Cilt:8, Sayı:1. – Türkiye: Bartın. − s.82-91.
19. Türkmen diliniin frazeologik sözlügi (2013). – Aşğabat. − 203 s..
20. Vəliyeva, N. (2006). Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət. − Bakı: “Nurlan”. − 864 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *16.02.2026*
*Düzəlişə göndərilib* *24.02.2026*
*Qəbul edilib* *07.03.2026*
*Nəşrə tövsiyə edib* *Mahirə Hüseynova*
*filologiya elmləri doktoru, professor*

*https://doi.org/10.30546/114578.2026.3015.272*

# SOSİAL MEDİADA AZƏRBAYCAN DİLİNİN NORMALARININ POZULMASI

**Səbinə Muxtarova**
*kiçik elmi işçi*
*Bakı Dövlət Universiteti*
*https://ORCID.org/0000-0002-1856-2648*
*sabina_mehdi1@mail.ru*

**Xülasə**

Dil yalnız bir xalqın ünsiyyət vasitəsi deyildir. O milli identikliyin sütunu, tarixi yaddaçın arxivi, milli-mədəni xüsusiyyətlərin daşıyıcısıdır. Dil eyni zamanda ictimai şüurun formalaşmasında və vətəndaş məsuliyyətinin dərkində sistemyaradıcı funksiyaya malikdir. Milli mənsubiyyətin əsas indikatoru kimi dilə münasibət, əslində, dövlətçilik təfəkkürünün səviyyəsini və cəmiyyətin özünüdərketmə kompetensiyasını əks etdirir.

Müstəqil dövlət quruculuğu mərhələsində dilin mühafizəsi və inkişafı prioritet istiqamət kimi müəyyənləşdirilsə də, xüsusən də kütləvi informasiya vasitələrində, sosial mediada və reklam kommunikasiya kanallarında pozulması müşahidə olunur. Mövcud dil xətalarının analizi, onların genezisi və aradan qaldırılması barədə müxtəlif platformalarda müzakirələr aparılmışdır.

Beləliklə, ictimai kommunikasiya müstəvilərində ədəbi dil normalarının pozulması faktlarının elmi əsaslarla təhlili, bu sahədə effektiv strategiyaların hazırlanması aktual və təxirəsalınmaz vəzifə kimi durur. Dilin qorunması məsələsi təkcə filoloji problem deyildir. Eyni zamanda milli təhlükəsizlik, mədəni davamlılıq, dövlətçilik çüurunun möhkəmləndirilməsi baxımından əhəmiyyətli məsələdir.

**Açar sözlər:** Azərbaycan dili, milli, sosial media, virtual məkan, orfoqrafik səhvlər, ədəbi dil normaları, leksik norma, qrammatik norma.

# VİOLATİON OF THE NORMS OF THE AZERBAİJANİ LANGUAGE İN SOCİAL MEDİA

**Sabina Mukhtarova**
*Baku State University*

**Abstract**

Language is not merely a means of communication for a particular nation. It constitutes a pillar of national identity, an archive of historical memory, and a carrier of national and cultural characteristics. At the same time, language performs a system-forming function in shaping public consciousness and fostering civic responsibility. Attitudes toward language as a primary indicator of national affiliation essentially reflect the level of state-oriented thinking and the society's competence in self-awareness.

During the period of independent state-building, the protection and development of the language were identified as priority directions. Nevertheless, violations of linguistic norms are particularly observable in mass media, social media, and advertising communication channels. The analysis of existing language errors, their genesis, and methods of elimination have been discussed across various platforms.

Therefore, a scientifically grounded examination of the violations of literary language norms within public communication spheres and the development of effective strategies in this field represent an urgent and relevant task. The preservation of language is not solely a philological issue; it is also of significant importance in terms of national security, cultural sustainability, and the consolidation of state consciousness.

**Key words:** Azerbaijani language, national identity, social media, virtual space, orthographic errors, literary language norms, lexical norm, grammatical norm.

## НАРУШЕНИЕ НОРМ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В СОЦИАЛЬНЫХ СЕТЯХ

**Сабина Мухтарова**
*Бакинский государственный университет*

**Резюме**

Язык является не только средством коммуникации одного народа. Он выступает опорой национальной идентичности, архивом исторической памяти и носителем национально-культурных особенностей. Язык также обладает системообразующей функцией в формировании общественного сознания и осознании гражданской ответственности. Отношение к языку как к основному индикатору национальной принадлежности фактически

отражает уровень государственно-правового мышления и компетенцию общества в сфере самосознания.

На этапе строительства независимого государства защита и развитие языка были определены в качестве приоритетного направления. Однако особенно в средствах массовой информации, социальных медиа и рекламных коммуникационных каналах наблюдаются нарушения языковых норм. Анализ существующих языковых ошибок, их генезис и пути устранения неоднократно становились предметом обсуждения на различных платформах.

Таким образом, научно обоснованный анализ фактов нарушения норм литературного языка в общественных коммуникационных пространствах и разработка эффективных стратегий в данной сфере выступают актуальной и неотложной задачей. Проблема сохранения языка является не только филологической. Она имеет существенное значение также с точки зрения национальной безопасности, культурной устойчивости и укрепления государственного самосознания.

**Ключевые слова:** азербайджанский язык, национальная идентичность, социальные медиа, виртуальное пространство, орфографические ошибки, нормы литературного языка, лексическая норма, грамматическая норма.

## Giriş/Introduction

Qloballaşma prosesi də dil mühitinə tərsirsiz ötüşmür. Elmi texnoloji tərəqqi ilə bağlı beynəlxalq terminlərin dillərə daxil olması təbii və obyektiv prosesdir. Hər bir dil ya bu terminləri qəbul edir, ya da onların adekvat qarşılığını yratmağa çalışır. Lakin qlobal məkandan gələn bütün leksik vahidlərin selektiv yanaşma olmadan mənimsənilməsi məqsədəuyğun hesab edilə bilməz. Xüsusən də gündəlik məişət ünsiyyətində müxtəlif xarici dillərə məxsus emosional və etiket ifadələrin geniş yayılması məsələləri mübahisə doğurur.

Xarici dil bilmək müasir dövrün zəruri xüsusiyyətlərindən biridir ki, bu da təqdirəlayiqdir. Ancaq ana dilimimdə danışarkən fikrin, təşəkkürün, üzrün və ya heyrətin başqa dillərin fraqmentar ifadələri ilə təqdim olunması "müasirlik" göstəricisi deyildir. Əksinə milli dil şüurunun zəifləməsi riskini artıran faktorlardan biridir.

Ədəbi dil həm ümumi ünsiyyət mexanizmi, həm də müəyyən normalara əsaslanan, funksional və sistemli quruluşu olan sosial institutdur. Bu normalar dilin fonetik, leksik, qrammatik və üslubi sahələrini əhatə edir, onun davamlılığını, funksional uyğunluğunu və cəmiyyət tərəfindən qəbul olunmasını təmin edir. Ədəbi norma dilin sistemli quruluşunu, ictimai mövqeyini və kommunikativ funksiyalarını izah etmək baxımından həlledici əhəmiyyətə malikdir.

Ədəbi dilin tabe olduğu qayda və qanunlar sistemi ədəbi dil normaları adlanır. Norma yalnız dilin inkişafını tənzimləyən göstərici deyil, həm də nitq prosesində tənzimləyici və nizamlama funksiyasını yerinə yetirir. Nizamı Cəfərovun fikrincə: "*Ədəbi dilin ən mühüm tələblərindən biri dil vahidlərinin istifadəsini tənzimləyən qaydalara mütləq riayət edilməsidir. Norma ədəbi dilin müəyyən dövrü üçün dil vahidlərindən istifadənin ümumi qəbul olunmuş nümunəsidir"* [Cəfərov, 2022:3-10]. Buradan aydın olur ki, norma eyni zamanda dilin həm funksional, həm də sosial tərəfini təşkil edir və cəmiyyətdə vahid ünsiyyətin təminatçısıdır.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və Ümummilli Lideri Heydər Əliyev dil siyasətini milli dövlətçiliyin fundamental əsaslarından biri kimi qiymətləndirmişdir. Onun dövlətçilik strategiyasında dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin, tarixi yaddaşın, ideoloji bütövlüyün və mədəni suverenliyin vacib atributu kimi qəbul edilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dili Konstitusiyada dövlət dili kimi rəsmiləşdirilmiş və ədəbi dilin normativ əsasları dövlət səviyyəsində qoruma altına alınmışdır. Bu siyasət ədəbi norma anlayışının hüquqi və ideoloji inteqrasiyasını təmin etmiş, dilin ictimai, siyasi və mədəni həyatdakı funksiyalarını gücləndirmək üçün əlverişli mühit yaratmışdır [Abdullayev, 2013:200].

Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 21) Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusu təsbit edilmişdir. Eyni zamanda, "Dövlət dilinin normaları" maddəsində qeyd olunur: "*Dövlət dilinin normaları Azərbaycan ədəbi dilinin orfoqrafiya və orfoepiya normalarını əhatə edir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən təsdiq edilir. Hüquqi, fiziki və vəzifəli şəxslər bu normalara əməl etməlidirlər*".

Norma dilin daxili strukturunun zəruri və vacib elementidir. O, həm tarixilik, həm də müasirliyi özündə birləşdirən çoxaspektli sistemdir. Norma həm yazılı, həm də şifahi dildə mövcuddur, həm ümumi, həm də sosial xarakterli səciyyə daşıyır, milli dilin ayrı-ayrı nitq kollektivlərinə xidmət edir

[Hüseynzadə, 2004:321]. Tarixi baxımdan norma müxtəlif inkişaf mərhələlərinin məhsulu olmuş, zamanla dəyişmiş və yenilənmişdir.

Ədəbi dilin normaları onun daxili resurslarına əsaslanır və ümumxalq dil materialları, seçmə və ümumiləşdirmələr bu normaların formalaşmasında həlledici rol oynayır. M.Məmmədov bildirir: "*Norma dilçiliyimizin əsas problemlərindən biri olsa da, indiyə qədər ən az öyrənilən sahələrdən biridir. Terminoloji və hüquqi normalardan əlavə, dil normaları fəaliyyət göstərdiyi bütün sahələri əhatə edir və onları tənzimləyir*" [Məmmədov, 2004:208].

**Ədəbi dilin normaları.** Müasir Azərbaycan dilinin normaları dialekt və şivələrdən, danışıq dilindəki qeyri-standart normlardan seçilmişdir ki, bu da ədəbi dilin sabitliyini və daxili strukturunu əks etdirir. Terminologiyanın normativliyi isə bu sistemin vacib tərkib hissəsidir, çünki terminoloji leksika həm ümumi, həm də sahəyə xas normalara tabe olmalıdır.

Ədəbi dil norması dilin işlənmə çərçivəsini müəyyən edir, yəni hansı formaların qəbul olunmuş, düzgün və məqsədəuyğun olduğunu ortaya qoyur. Normaya riayət edilməsi funksional üslublarda, rəsmi, elmi, bədii, publisistik və danışıq üslubunda qorunur. Normaya uyğunluq dilin aydın, dəqiq və məntiqi ifadəsini təmin edir.

Müasir Azərbaycan ədəbi dilinin normaları aşağıdakı kateqoriyaları əhatə edir:

- Fonetik norma
- Orfoqrafik norma
- Orfoepik norma
- Leksik norma
- Qrammatik norma
- Üslubi norma [Xudiyev, 2012:350].

Ədəbi dil normaları dilin sistemli işləməsini təmin edən əsas vasitə olmaqla yanaşı, anlaşıqlı və sabit ünsiyyət imkanlarının formalaşmasında həlledici rol oynayır. Bu normaların qorunması və öyrənilməsi dilin saflığını, funksionallığını və ifadə imkanlarını artırır, eyni zamanda dilin tarixi inkişaf yolunu və mədəni səviyyəsini əks etdirir. Beləliklə, ədəbi norma yalnız dilin struktur əsaslarını müəyyən etmir, həm də onun ictimai, mədəni və kommunikativ funksiyalarını ortaya qoyur.

Ədəbi dil normalarının əhəmiyyəti milli dövlətçilik kontekstində də xüsusi vurğulanmalıdır. Dil norması hüquqi, ideoloji və mədəni dəyər kimi milli dövlətçiliyin əsas strukturlarından biri hesab olunur. Azərbaycan

Respublikasında Konstitusiya ilinin elan edilməsi bu baxımdan mühüm elmi və ictimai zəmin yaradır. Bu il çərçivəsində Azərbaycan dilinin hüquqi statusu, norma sistemi və funksional imkanları yenidən nəzərdən keçirilir ki, bu da dilin qorunması və inkişafı istiqamətində strateji əhəmiyyət kəsb edir.

Ədəbi norma həm dilin daxili strukturunu, həm də onun hüquqi-mədəni funksiyalarını əhatə edən kompleks sistemdir. Bu sistemin qorunması və inkişafı Azərbaycan xalqının hüquqi dövlət quruculuğunda, mədəni və elmi inteqrasiya proseslərində əvəzsiz rol oynayır. Azərbaycan dili istər funksional, istərsə də struktur baxımından zəngin və inkişaf etmiş dillərdən hesab olunur.

Müasir dövrdə Azərbaycan dilinin inkişafı daha çox onun sosial funksiyalarının genişlənməsi ilə səciyyələnir. Bu proses nəticəsində dilin qrammatik quruluşu daha da təkmilləşir, leksik tərkibi zənginləşir və terminoloji sistemdə normallaşma prosesləri sürətlənir. Eyni zamanda, dil milli mədəniyyətin, elm və təhsilin inkişafında əsas vasitə kimi çıxış edir. Bu baxımdan, Azərbaycan dili yalnız ünsiyyət aləti deyil, həm də mədəniyyətin, bilik sistemlərinin və sosial inteqrasiyanın mərkəzi elementinə çevrilmişdir.

**Sosial mediada dil normalarının pozulması.** Müasir Azərbaycan mediasında ədəbi dilin normalarının pozulması ciddi problem kimi qalmaqdadır. Analitik təhlillər göstərir ki, bu hallar bir neçə əsas amillə əlaqələndirilə bilər. İlk növbədə, redaktə və korrektura sistemlərinin effektiv şəkildə işləməməsi mediada dil qüsurlarının sürətlə yayılmasına səbəb olur. Bir çox xəbər portalları və elektron KİV-lər mətnləri redaktor yoxlamasından keçirmədən yayımlayır ki, bu da cümlələrin ardıcıllığının pozulmasına, fikirlərin bir-birini tamamlamamasına və sözlərin düzgün kontekstdə işlədilməməsinə gətirib çıxarır.

Media məkanında ədəbi dilin pozulmasının digər səbəbi əməyin ucuzlaşdırılması və peşəkar kadrların əksikliyidir. Televiziya və radio kanallarında, həmçinin internet saytlarında operativlik tələbləri nəzərə alınaraq savadsız işçi qüvvəsinə üstünlük verilir. Nəticədə dilin fonetik, leksik, qrammatik və üslubi normalarına riayət olunmur. Eyni zamanda, medianın sərbəstliyindən istifadə edən şəxslərin ədəbi dil biliklərinə malik olmaması da bu prosesə təsir edir. Bir çox hallarda xəbər mətnlərində mənası qeyri-müəyyən, qondarma ifadələr və uyğun olmayan leksik vahidlər istifadə edilir ki, bu da ədəbi norma pozuntusuna səbəb olur.

Elektron KİV-lərdə operativlik ədəbi dilin qorunmasına mənfi təsir göstərən mühüm faktordur. Xəbərlərin sürətlə yayılması və rəqabət şəraiti

redaktor və jurnalistlərin ədəbi norma pozuntularını düzəltməyə kifayət qədər vaxt ayırmamasına səbəb olur. Bu cür situasiya xəbər başlıqları və mətnlərin dialoq üslubuna yaxınlaşması, durğu işarələrinin düzgün işlədilməməsi və qrammatik normaların pozulması ilə nəticələnir.

Azərbaycan mediasında ədəbi dilin qorunması və inkişaf etdirilməsi üçün kompleks və sistemli yanaşma tələb olunur. Ədəbi norma pozuntularının qarşısının alınması yalnız texniki yoxlama və monitorinq fəaliyyəti ilə mümkün deyil; bunun üçün yüksək peşəkarlığa malik kadrların cəlb edilməsi, institusional dəstək və davamlı təlim proqramları həyata keçirilməlidir. Bu tədbirlər milli dilin qorunması, mədəni irsin davamlılığı və gələcək nəsillərə təmiz ana dilinin çatdırılması baxımından strateji əhəmiyyətə malikdir.

Sosial media platformalarının geniş yayılması ilə paralel olaraq ictimai dil mühitində nəzərəçarpacaq dəyişikliklər baş verməkdədir. Sosial şəbəkələr və digər virtual ünsiyyət məkanları müşahidə olunduqda, ədəbi dil normalarının müxtəlif səviyyələrdə pozulduğu aydın şəkildə üzə çıxır. Leksik seçimin qeyri-dəqiqliyi, qrammatik işarələrin sistemsiz tətbiqi kütləvi xarakter daşıyır. Bununla yanaşı ədəbi dilin saflığına xələl gətirən ifadə formalarının, jarqon və vulqar elementlərin geniş istifadəsi dil mədəniyyətinin zəifləməsinə səbəb olur.

Xüsusilə sosial şəbəkələrdə sözlərin qısaldırlması, saitlərin ixtisarı və fonetik prinsiplərin pozulması adi yazı praktikası kimi təqdim edilir. Məsələn gündəlik istifadə olunan salamlaşma və təşəkkür etiketlərinin yalnız samitlərdən ibarət qrammatik formaya salınması, ünsiyyətin sürətinə xidmət edən "praktik" üsul kimi əsaslandırılır. Gənc nəsil bu modeli müasir kommunikasiya strategiyası kimi dəyərləndirsə də, bu yanaşma yazılı nitqin foetik və morfoloji sisteminə xələl gətirir.

Sosial şəbəkələrdə müşahidə olunan tipik problemləri sistemləşdirərkən aşağıdakı hallar daha çox ön plana çıxır:

- Sözlərin təhrif olunmuş formada yazılması;
- Sözlərin fonetik tələffüz şəklində yazılması;
- Hər bir istifadəçinin normativ çərçivədən kənar ünsiyyət qurması;
- Habelə loru və vulqar ifadələrdən geniş istifadə;
- Leksik vahidlərin semantik baxımdan yalnış seçilməsi;
- Cümlə daxilində söz sırasının və semantik əlaqələrin kəskin pozulması;
- Durğu işarələrindən qeyri dəqiq istifadə ya da tamamilə nəzərə alınmaması.

Bu hallar nitqin struktur bütövlüyünü sarsıdır və ümumi anlaşılma səviyyəsini aşağı salır. Əlbətdə məsələyə tamam fərqli yanaşmalar da mövcuddur. Bəzi mövqelərə görə, sosial şəbəkələrdə normativ dil tədrisi məkanı deyil, sərbəst ünsiyyət platformasıdır. Burada sürət, operativlik və fərdi fikir azadlığı başlıca prioritetdir. Amma bunu da nəzərə almaq lazımdır ki, sosail şəbəkələr fərdi deyil, ictimai ünsiyyət məkanıdır. İctimai kommunikasiya isə müəyyən etik və normativ çərçivələrə əsaslamnır. Müxtəlif dialekt , şivə daşıyıcılarının bir araya gəldiyi platformada qarşılıqlı anlaşılam və vahid ünsiyyət mühiti yalnız ədəbi normalar əsasında formalaşdırıla bilər.

Azərbaycan Respublikasının Ümumilli Lideri Heydər Əliyev tərəfindən 18 iyun 2001-ci il tarixində imzalanmış "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanda Azərbaycan Ədəbi dilinin tarixi inkişaf trayektoriyası yüksək dəyərləndirilir. Fərmanda vurğulanır ki, XX əsr milli ədəbi dilimizin ən dinamik inkişaf və intibah mərhələsi kimi səciyyələnir. Eyni zamanda qeyd olunur ki, əsrin əvvələərindən etibarən ədəbi dil məsələsi ictimai-siyasi mübarizənin mühüm komponentine çevrilmiş, ana dilində dərsliklər hazırlanmış, müxtəlif nəşrlər və müntəxəbatlar tərtib edilmiş, dilin fonetik sistemi cə qrammatik quruluşu ilə bağlı fundamental elmi əsərlər qələmə alınmışdır [Əliyev, 2001].

Həmin dövrdə milli mətbuat ana dili və ədəbi norma uğrunda ideoloji mübarizənin aparıcı platforması rolunu oynamış, ədəbi dilin standartlarının formalaşdırılmasında görkəmli ziyalılar fəal iştirak etmişlər. Xalq danışıq dilinin zənginliyi "Molla Nəsrəddin" jurnalı vasitəsi ilə ədəbi müstəviyə daşınmışdır. Səhnə sənəti isə yeni milli-mədəni kontekstdə bədii nitq imkanları ilə ədəbi dilin inkişafına mühüm töhvələr verilmişdir.

Eyni strateji xətt sonrakı mərhələdə də davam etmişdir. Prezident İlham Əliyev 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycam dilinin qloballaşma, şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda ana dilinin dövlət dili kimi funksional imkanlarının genişləndirilməsi, dilçilik eminin inkişafı və ədəbi dil normalarına əməl olunmasının təmin edilməsi üçün konkret vəzifələr müəyyən olunmuşdur. [Əliyev, 2013].

Dil sistemində ən çox dəyişən sahə leksik tərkibdir. Ona görə də leksik normaların müəyyənləşdirilməsi heç də asan məsələ deyil. Hər sözün mənşəyini, inkişaf yolunu, nitqdə necə işləndiyini bilmək lazımdır. Amma sosial şəbəkələrdə buna çox da fikir verilmir.

Lekrik norma − sözün nitqdə düzgün istifadə qaydasıdır. Söz ya əsas ya da məcazi mənada, lüğətlərdə qeyd olunduğu formada işlədilməlidir. Başqa halda söz təhrif olunur. Sosial mediada səslənməsi oxşar, mənası fərqli olan sözlər tez-tez istifadə olunur. Məsələn, təsvir yerinə təsəvvür ya da əksinə bunlar leksik normanın pozulması hallarıdır.

Müasir rəqəmsal kommunikasiya mühiti leksik sistemə ciddi təsir göstərir. Sosial şəbəkələrdə ifadə sürəti və emosional dinamika çoc zaman normativ dəqiqliyi üstələyir. Nəticədə "belə deyək" , "nöqteyi nəzərdən", "ən əsası" kimi artıq və şablonlaşmış ifadələrin yerli-yersiz istifadəsi nitqin məntiqi və üslubi aydığlığını zəiflədir. Halbuki sözdən uyğunyerlərdə və məqsədəuyğun istifadə olunması leksik normanın fundamental tələbidir.

Digər mühüm məsələ alınma sözlər və paralel variantların işlədilməsidir. Məsələn, "müvəffəqiyyət" əvəzinə "başarı", "müstəqillik" əvəzinə "bağımsızlıq", "inkişaf etmiş" əvəzinə "gəlişmiş" kimi sözlərin sosial mediyada geniş istifadəsi müşahidə olunur. Bu cür əvəzləməmlər bəzən dilin zəngiləşdirilməsi kimi təqdim olunsa da, əslində semantik sabitliyi pozur. Dilin daxili qanunauyğunluğu və tarixi ənənəsi müəyyən sözləri qoruyur, digərlərini isə təbii seleksiya yolu ilə sıradan çıxarır. Məsələn "başarı" sözü təklif olunsa da, "uğur" sözü daha geniş ictimai qəbul qazanmışdır. Bu fakt dilin sosial-psixoloji mexanizmlərinin fəaliyyətini aydın şəkildə göstərir.

Sosial şəbəkələrdə leksik mormanın pozulmasının digər istiqaməti jarqon və vulqar elementlərin geniş yayılmasıdır.  Ədəbi dil çərçivəsində bu tip vahidlərin işlədilməsi yalnız, bədii-estetik məqsəd güddükdə məqbul sayıla bilər.

İctimai-siyasi və texnoloji dəyişikliklərlə əlaqədar olaraq çoxsaylı sözlər və anlayışlar dilimizə daxil olmuşdur. Lakin sosial mediada yeni sözlərə ehtiyac olmadan, mövcud və semantik baxımdan oturuşmuş sözlərin yerinə işlədilməsi normativ sistemin pozulmasına gətirib çıxarır. Dil süni müdaxiləni qəbul etmir. Yalnız zərurət və ictimai tələbat əsasında dəyişir.

Nəticə etibarilə, sosial şəbəkələrdə leksik normanın pozulması aşağıdakı amillərlə şərtlənir.

- Semantik baxımdan fərqli sözlərin qarışdırılması;
- Normativ baxımdan qeyri sabit variantlara meyil;
- Artıq və şablonlaşmış ifadələrin intensiv istifadəsi;
- Loru və jarqon elementlərin nitqə daxil edilməsi.

Hazırda Azərbaycan dilinin tətbiqi sahəsində müəyyən problemlər açıq şəkildə nəzərə çarpır. İnformasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsal

kommunikasiya mühitinin genişlənməsi, xüsusilə internet və sosial şəbəkələr, insanların gündəlik ünsiyyət formasını köklü şəkildə dəyişmiş, yazı və nitq fəaliyyətinə yeni dinamika gətirmişdir. Sosial şəbəkələr isə dilə sürət, qısalıq və ekspressivlik üzərində qurulan çevik, qeyri-formal kommunikasiya imkanları təqdim edir. Bunun nəticəsi olaraq ədəbi dilin normalarının pozulması, orfoqrafik qaydalara laqeyd yanaşma və ingilis dilinin təsiri ilə yeni hibrid yazı modellərinin yaranması halları müşahidə olunur.

Sosial şəbəkə dilinin xarakterik xüsusiyyətləri − ixtisar, sadələşmə və səs qənaəti kimi proseslər − ədəbi dilin sabit normativ strukturuna təsir göstərir. Unudulmamalıdır ki, ədəbi dil vahid norma üzərində qurulmuş sistemdir və uzunmüddətli ünsiyyətin etibarlı vasitəsi rolunu oynayır. Sosial şəbəkə isə dilin dinamik inkişafını əks etdirir, burada impulsiv şəkildə formalaşan ifadələr kommunikasiya mühitində qarşılıqlı təsir mexanizmi yaradır.

Ədəbi dil sosial dilin bu yeni formalarını süzgəcdən keçirərək yalnız normalara uyğun olanları qəbul edir. Bu da dilin təkamül prosesinin əsasını təşkil edir. Lakin sosial şəbəkələrdə geniş istifadə olunan ixtisarlar və sadələşmələr ədəbi norma hesab edilmir və dilin normativ sistemini pozmaq potensialına malikdir.

Müasir kommunikasiya mühiti və sosial media, Azərbaycan dilinin istifadəsində müəyyən problemlərin aktuallığını artırmışdır. İnternet və sosial şəbəkələrdəki sürətli və qeyri-formal ünsiyyət ədəbi dilin morfoloji və sintaktik normalarının pozulmasına səbəb olur.

Ədəbi dilin morfoloji normaları söz formalarının düzgün seçilməsi və digər sözlərlə əlaqələnmə qaydalarını tənzimləyir. Sosial mediada bu normalar bir neçə istiqamətdə pozulur:

- Miqdar sayları ilə birlikdə istifadə olunan isimlər tez-tez tək halda işlədilmir. Qeyri-müəyyən saylarla (“çox”, “az”, “xeyli”) bağlı nümunələrdə də pozuntu var: “çox adamlar gəlib” əvəzinə “çox adam” işlədilməlidir.
- Feil inkar şəkilçilərinin bağlayıcılarla uyğunsuz işlədilməsi də geniş yayılıb. Sosial mediada rast gəlinən “o nə yazmır, nə də oxumur” ifadəsi normaya uyğun deyil; düzgün forması “nə yazır, nə də oxuyur” olmalıdır.
- Sifət əmələ gətirən şəkilçilərin səhv tətbiqi də normanın pozulmasına səbəb olur. Sosial mediada “rahatsız”, “mümkünsüz” kimi sözlər işlədilir, halbuki ədəbi norma “narahat” və “namümkün” formalarını tələb edir.

- "Kaş" ədatı ilə başlayan cümlələrdə arzu şəkilçisinin əvəzinə şərt şəkilçisinin işlədilməsi də müşahidə olunur: "Kaş sizi çoxdan verilişimizə dəvət etsəydim" ifadəsi normaya uyğun deyil; düzgün forması "dəvət edəydim" şəklində verilməlidir.
- Pleonastik şəkilçilərin istifadəsi sosial mediada geniş yayılıb. Məsələn, "düşmənçilik" sözündəki "-çi" şəkilçisi artıqdır; düzgün forması "düşmənlik"dir. Eyni qayda "narahatçılıq" → "narazılıq", "peşmançılıq" → "peşmanlıq" kimi sözlər üçün də tətbiq olunur. Sosial mediada "avaraçılıq", "yetimçilik", "kasıbçılıq" kimi formalar da ədəbi norma ilə uyğun gəlmir.
- Feili sifətlərin zaman kateqoriyasının nəzərə alınmaması də yayılmış norma pozuntusudur. Sosial mediada "Gələn il keçirilən buraxılış imtahanlarında yeniliklər tətbiq olacaq" ifadəsi düzgün forması "Gələn il keçiriləcək, buraxılış imtahanlarında yeniliklər tətbiq olunacaq"dır.

Sosial mediada cümlələrin quruluşunda və söz sırasının düzgünlüyündə də ciddi pozuntular müşahidə edilir: Xəbər və proses adlarının cəm forması ilə işlədilməsi tez-tez yanlış olur. Cümlə ölçüləri, söz sırası və mübtəda-xəbər uzlaşması da sosial mediada sadələşdirilmiş və normadan kənar formadadır. Bu, ixtisarların, qısaltmaların və Türkiyə türkcəsinin təsiri ilə birgə ədəbi normanın pozulmasına gətirib çıxarır.

**Nəticə/Conclusion**

Müasir dövrdə sosial şəbəkələrin və digər elektron ünsiyyət vasitələrinin geniş yayılması Azərbaycan ədəbi dilinin normalarının qorunması baxımından həm imkan, həm də çağırış yaradır. Təəssüf ki, bir çox hallarda sosial məkanda yazı və danışıq üslubunda ədəbi dil normalarının pozulması müşahidə olunur. Bu, insanların mütaliədən uzaq qalması, nitq vərdişlərinin zəifləməsi və leksik, qrammatik biliklərin yetərincə inkişaf etməməsi ilə sıx bağlıdır. Nəticədə, yalnız qrammatik səhvlər yox, həm də söz seçimi və ifadə tərzində uyğunsuzluqlar geniş vüsət alır.

Azərbaycan ədəbi dilinin qorunması və gələcək nəsillərə düzgün, zəngin və estetik baxımdan formalaşmış dil mirasının ötürülməsi ümummilli məqsəd kimi qiymətləndirilməlidir. Bunun üçün hər bir fərd öz yazı və danışıq üslubuna diqqət yetirməli, dil qüsurlarını azaltmaq və nitq mədəniyyətini yüksəltmək istiqamətində davamlı çalışmalıdır. Xüsusilə dilin leksik imkanlarına, qrammatikasına və üslub xüsusiyyətlərinə bələd olmaq, düzgün yazı və ifadə bacarıqlarını inkişaf etdirmək vacibdir.

Bu məqsədlə konkret və səmərəli tədbirlər həyata keçirilməlidir. Bunlar arasında seminarlar və təkmilləşmə dərnəklərinin təşkil olunması, məktəblərdə diskussiya və debat klublarının fəaliyyəti, bədii qiraət və dram dərnəklərinin canlandırılması xüsusi əhəmiyyət kəsb edir. Çünki bədii əsərlərin dili, ifadəli oxu və dramatik tədris vasitəsilə nitq vərdişləri formalaşır, leksik və qrammatik zənginlik artır. Eyni zamanda, kompüter, telefon və digər elektron vasitələrdə sürətli və düzgün yazmaq vərdişlərinin təşviqi də dil normalarının qorunmasına töhfə verir.

Problemin həlli üçün ilk vəzifə, mediada çalışan şəxslərin Azərbaycan ədəbi dilinə dair biliklərinin sistemli qiymətləndirilməsidir. İşə qəbul zamanı əməkdaşların yazı üslubu, leksik və qrammatik bilikləri nəzərə alınmalı, həmçinin onların bədii və elmi əsərlərə tanışlığı yoxlanmalıdır. Bu yanaşma ədəbi norma pozuntularının qarşısının alınmasına və dilin düzgün işlənməsinə xidmət edəcək.

Bununla yanaşı, jurnalistlərin peşəkar dil kurslarına, seminar və treninqlərə cəlb edilməsi tövsiyə olunur. Bu tədbirlər Dilçilik İnstitutu və Mətbuat Şurası kimi institusional qurumların əməkdaşlığı ilə həyata keçirilə bilər. Akademik təlimlər vasitəsilə jurnalistlərin Azərbaycan ədəbi dilinin fonetik, leksik, qrammatik və üslubi normalarına yiyələnməsi təmin edilə bilər ki, bu da medianın dil keyfiyyətinin yüksəlməsinə və informasiya məkanında peşəkarlığın möhkəmlənməsinə xidmət edəcək.

Ədəbi dilin qorunması, həmçinin, dövlət və ictimai nəzarətin gücləndirilməsini tələb edir. Bu sahədə monitorinq sistemlərinin yaradılması, dil pozuntularına qarşı təsirli tədbirlərin tətbiqi və jurnalistlərin təkmilləşdirilməsi media məkanında ədəbi norma pozuntularının azaldılmasına və milli mədəniyyətin inkişafına töhfə verəcəkdir.

Ən önəmlisi isə cəmiyyətdə dil normalarına hörmət və onların pozulmasına qarşı ictimai qınaq mədəniyyətinin formalaşdırılmasıdır. Hər bir istifadəçi, göstərdiyi yazı nümunələrinin dil norma və mədəniyyətinə uyğun olub-olmamasına diqqət etməli, özünü təkmilləşdirməyə yönəltməlidir. Bu, yalnız fərdi məsuliyyət deyil, eyni zamanda ümummilli işin bir hissəsidir. Heç kəs özünü öyüb "mən dilimizi bilirəm" deməklə kifayətlənməməli, hamımız öyrənməli və inkişaf etməliyik.

Nəticədə Azərbaycan ədəbi dilinin qorunması və inkişaf etdirilməsi hər birimizin qarşısında duran vacib vəzifədir. Məqsədimiz yalnız dil qüsurlarını aşkarlamaq və onları düzəltmək deyil, eyni zamanda ədəbi dil normalarının